www.525.az Facebook.com/525.az İnstagram.com/525ciqezet

# Şuşada növbəti Vaqif Poeziya Günləri

## 40 İLLİK TARİXİ OLAN VAQİF POEZİYA GÜNLƏRİ ŞUŞA İŞĞALDAN AZAD EDİLDİKDƏN SONRA ARTIQ İKİNCİ DƏFƏDİR Kİ, MƏDƏNİYYƏT PAYTAXTINDA YENİDƏN TƏŞKİL OLUNUR










İyulun 14-də Şuşada Heydər Əliyev Fondu, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Yazıçılar Birliyinin təşkilatçılığı ilə Vaqif Poeziya Günləri başlayıb. 40 illik tarixi olan Vaqif Poeziya Günləri Şuşa işğaldan azad edildikdən sonra artıq ikinci dəfədir ki, Azərbaycanın mədəniyyət paytaxtında yenidən təşkil olunur.

Poeziya Günləri çərçivəsində Heydər Əliyev Fondu və Bakı Kitab Mərkəzinin təşkilatçılığı ilə kitab sərgisi açılıb. Sərgidə Qarabağ tarixinə, mədəniyyətinə aid 300-dən çox yerli və xarici şair və yazıçının kitabı, yeni nəşrlər nümayiş etdirilib. Sərginin açılışında mədəniyyət və incəsənət xadimləri, AYB-nin üzvləri, gənc yazıçılar və şairlər çıxış edib, müxtəlif kitabların təqdimatı keçirilib.

Sərgini Azərbaycan Yazıçılar Birliyinin üzvü İlqar Fəhmi açıb. Xalq yazıçısı Anar qonaqları salamladıqdan sonra çıxış edən Azərbaycan Yazıçılar Birliyinin sədr müavini Rəşad Məcid bildirib ki, sərgidə 100-dən çox şair və yazıçının kitabları nümayiş etdirilir. Kitab sərgisində ayrı-ayrı yazıçıların kitablarının təqdimatı keçirilib.

Əvvəlcə Azərbaycan Yazıçılar Birliyinin təşəbbüsü ilə hazırlanan "Qarabağ dastanı, otuz ilin həsrəti - 44 günün Zəfəri" və Şuşada keçirilmiş Vaqif Poeziya Günləri barədə "Bütün yollar Şuşaya aparır..." kitablarının təqdimatı olub.

"Qarabağ dastanı, otuz ilin həsrəti - 44 günün Zəfəri" kitabı Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anarın təşəbbüsü ilə Qələbəmizin ilk günlərindən hazırlanmağa başlanıb. Kitabda azad olunmuş Qarabağdan olan hər bir yazıçı öz rayonları haqqında xatirələrini yazıb. Məsələn, Ramiz Rövşən Qubadlıdan, Seyran Səxavət Füzulidən, Elçin Hüseynbəyli Cəbrayıldan, Aqil Abbas Ağdamdan yazıblar. Eyni zamanda, bu kitabda Qarabağın tarixi, ədəbiyyatı, musiqi adamları haqqında zəngin məlumatlar da yer alıb. Həmçinin, şairlərin Qarabağa həsr olunmuş şeirlərinə, ötən il "Xarıbülbül" musiqi festivalından sonra yazılmış publisist məqalələrə də kitabda yer verilib. Kitabın "Ön söz"ünün müəllifi və redaktoru isə Azərbaycan Yazıçılar Birliyinin sədr müavini Rəşad Məciddir.

Sərgidə iştirak edən yazıçılar və şairlər Azərbaycanın Vətən müharibəsində Qələbəsinə həsr olunmuş kitablar nəşr etdiriblər.

Tədbirdə Elçin İsgəndərzadə, Elşən Əzim, Arzu Əsəd, İntiqam Yaşar və digərləri öz kitabları haqqında danışıb, şeirlər səsləndiriblər. Şair və publisist, Azərbaycan Yazıçılar Birliyinin üzvü Ramiz Qusarçaylı Şuşaya həsr olunmuş şeirini oxuyub və təəssüratlarını bölüşüb.

Daha sonra tədbirin rəsmi açılışı və konsert-tamaşa olub. Tədbirin əsas hissəsi görkəmli şair Molla Pənah Vaqifin məqbərəsinin önündə keçirilib.

Qeyd edək ki, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin iştirakı ilə 1982-ci il yanvarın 14-də Şuşada Molla Pənah Vaqifin məqbərəsinin və Poeziya Evinin təntənəli açılışı olub. Məhz bu səfər çərçivəsində Ümummilli lider Heydər Əliyev Vaqif Poeziya Günlərinin keçirilməsi ilə bağlı göstəriş verilib. Müasir Azərbaycan ədəbiyyatı tarixində öz bənzərsizliyi ilə seçilən Vaqif Poeziya Günləri həmin tarixdən etibarən 1991-ci ilədək hər il şairin vətəni Qazaxdan başlayıb, Şuşanın əsrarəngiz Cıdır düzündə yekunlaşardı.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun zəfəri nəticəsində Şuşa şəhəri erməni işğalından azad edildikdən sonra Vaqif Poeziya Günləri yenidən öz yurdunda - mədəniyyət paytaxtımızda keçirilməkdədir.

"Torpaqlarımız azad ediləndən sonra Prezident İlham Əliyevin ilk fərmanlarından biri Şuşanın mədəniyyət mərkəzi elan edilməsi oldu. Bundan sonra əvvəlki ənənələr bərpa edildi. İkinci ildir ki, Şuşada Vaqif Poeziya Günlərini keçiririk. Həmçinin, "Xarıbülbül" festivalı da təşkil olundu".

Bu sözləri AZƏRTAC-a müsahibəsində Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar deyib. "Şuşa Azərbaycan mədəniyyətinin beşiyidir. Biz şadıq ki, Qarabağın incisinin belə möhtəşəm tədbir və festivallara yenidən ev sahibliyi etdiyi günləri görə bildik. Bunu Prezident, Müzəffər Ali Baş Komandan Prezident İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuza borcluyuq", - deyə Anar bildirib.

"Uzun müddətdən sonra yenidən məmləkətimizin ən müqəddəs yerində - azad və abad Şuşadayıq. Şuşa həm coğrafi, həm də mənəviyyat baxımından çox müqəddəs bir yerdir. Burada olmaq insana qəribə bir xoşbəxtlik gətirir, burada nəyə görə özünü xoşbəxt hiss etdiyini bilmirsən". Bu sözləri isə Əməkdar incəsənət xadimi Baba Vəziroğlu deyib.

Keçən il Şuşaya gəldiyini bildirən B.Vəziroğlu ötən müddət ərzində xeyli işlərin görüldüyünü qeyd edərək bildirib: "Şuşa bizim xəyalımızda, təsəvvürümüzdə həmişə gözəl olub. Amma bir il ərzində zahiri də gözəlləşib. Yenidən Şuşada olduğuma görə xoşbəxtəm. 1982-ci ilin yanvarında Ulu öndər Heydər Əliyevin rəhbərlik etdiyi nümayəndə heyətinin tərkibində ilk dəfə Molla Pənah Vaqifin məqbərəsinin açılışında iştirak etmişəm. Ötən il, yəni 39 il sonra məqbərənin yenidən açılışında Prezident İlham Əliyevlə birlikdə iştirak etdim. Azad Şuşaya ikinci dəfədir gəlirəm. Qələm dostlarımla böyük şairimiz Vaqifin çağırışına yığışmışıq. Bu gün ən gözəl şeirlərimizi böyük ustadın hüzurunda deyəcəyik. Zənnimcə, ən gözəl filmlər, əsərlər, şeirlər indidən ərsəyə gələcək, Şuşanın adına layiq əsərlər yazılacaq".

Qeyd edək ki, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin iştirakı ilə 1982-ci il yanvarın 14-də Şuşada Molla Pənah Vaqifin məqbərəsinin və Poeziya Evinin təntənəli açılışı olub. Məhz bu səfər çərçivəsində Ümummilli lider Heydər Əliyev Vaqif Poeziya Günlərinin keçirilməsi ilə bağlı göstəriş verilib. Müasir Azərbaycan ədəbiyyatı tarixində öz bənzərsizliyi ilə seçilən Vaqif Poeziya Günləri həmin tarixdən etibarən 1991-ci ilədək hər il şairin vətəni Qazaxdan başlayıb, Şuşanın əsrarəngiz Cıdır düzündə yekunlaşardı.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun zəfəri nəticəsində Şuşa şəhəri erməni işğalından azad edildikdən sonra Vaqif Poeziya Günləri yenidən öz yurdunda - mədəniyyət paytaxtımızda keçirilməkdədir.